UOT 327; 930.22
https://doi.org/10.30546/3006-0346.2025.3.87.565

# AZƏRBAYCAN - FRANSA MÜNASİBƏTLƏRİ MÜASİR MƏRHƏLƏDƏ

**SEVDA YUSIFOVA**
*ADNSU-nun "Humanitar fənlər" kafedrasının müəllimi*
*E-mail: rustemov_1969@mail.ru*

Fransa, Qərbi Avropada yerləşən ən inkişaf etmiş Avropa ölkələrindən biridir. Fransa orta əsrlərdən Avropada və beynəlxalq aləmdə mühüm rol oynamış, ən başlıca siyasi arenalarda əsas yerlərdən birini tutmuşdur. Təsadüfi deyil ki, XIX əsrdə Fransız dili ümumavropa dili rolunda çıxış etmişdir. Fransa Birləşmiş Millətlər Təşkilatının, NATO-nun, Avropa İqtisadi Birliyinin qurucularından biridi, BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvüdür.

Ötən əsrin 90-cı illərində beynəlxalq münasibətlər sistemində baş verən önəmli siyasi dəyişikliklər Fransadan da yan keçməmiş və öz təsirini göstərmişdir. 90-cı illərin ortalarında Fransada 14 illik "Mitteran dövrü" başa çatdı. Respublika partiyasını dəstəkləyən Alyansın lideri Jak Şirak Fransa prezidenti seçildi. O zaman siyasi ekspertlər daha çox ölkənin xarici siyasətində ola biləcək dəyişikliklər haqqında müxtəlif fərziyyələr söyləyir, yeni prezidentin Şarl de Qollun siyasətini davam etdirəcəyini proqnozlaşdırırdılar. Ancaq zaman keçdikcə xarici siyasət sahəsindəki sosialistlər və "neoqallistlər" arasındakı fikir ayrılıqlarının o qədər də böyük olmadığı və əhəmiyyətli dəyişikliklərə səbəb olmadığı ortaya çıxdı. Jak Şirakın dövründə Fransanın xarici siyasətinin əsas istiqaməti Avropa təşkilatı olaraq qaldı. J.Şirak ABŞ-la münasibətləri yaxınlaşdırdı, NATO ilə münasibətləri yaxşılaşdırdı. Hələ 1995-ci ilin yayında Fransanın nüvə silahının bir çox modernləşdirilməsini başa çatdırmaq üçün Sakit okeanda Mururoro adasında nüvə sınaqları keçirməsi üzrə qərarı, J.Şirakın general de Qollun siyasətini davam etdirməsini xatırladırdı. Bu sınaqlar yalnız 1996-cı ilin əvvəlində, dünya birliyinin kəskin etirazından sonra dayandırıldı. [11.s.42]

2007-ci ilin aprel-may aylarında Fransada keçirilmiş növbəti prezident seçkilərində, sağçı siyasi birliyin lideri, Xalq Hərəkatı Birliyinin lideri Nikolas Sarkozi ölkənin yeni prezidenti seçildi. Müasir Fransanın xarici siyasəti bir neçə əsas ideya ətrafında məhz bu dövrdən sonra yenidən quruldu. Fransa özünü ənənəvi olaraq "Qərb demokratik ailəsinin üzvü, demokratiya və insan hüquqlarının müdafiəsinə sadiq bir ölkə" kimi göstərməyə çalışırdı. N.Sarkozinin dövründə Fransanın xarici siyasətinin əsas istiqamətləri Avropada inteqrasiyanın inkişafına, Avropa Birliyi üzvləri ilə əməkdaşlığın inkişaf etdirilməsinə yönəlmişdi. N.Sarkozinin prezidentliyi zamanında ABŞ-la münasibətlər, Aralıq dənizi ölkələri ilə əlaqələrin gücləndirilməsi, Rusiya ilə qarşılıqlı əlaqələr də inkişaf etdirilmişdir. Bu dövrdə Fransa respublikası yeni müstəqillik əldə etmiş ölkələrlə münasibətlərə də böyük önəm verirdi. Lakin, keçmiş müstəmləkəçi ölkə olan Fransa bu yeni dövlətlərə üstdən aşağı baxma siyasəti yürüdürdü.[14,s.72]

N. Sarkozini əvəz edən Fransua Olandın dövründə, Fransanın xarici siyasət xətti demək olar ki, dəyişilməz qaldı. Fransua Oland N.Sarkozidən fərqli olaraq, xarici siyasəti yalnız Avropa İttifaqı ilə münasibətlərin yaxşılaşdırılmasında deyil, bir sıra dövlətlərlə də münasibətlərin yenidən qurulmasında axtarırdı. Məsələn, F.Oland N.Sarkozidən fərqli olaraq Türkiyənin Avropa İttifaqına üzv olması məsələsində daha yumşaq və daha mülayim bir siyasət yürüdürdü.

2017-ci ilin may ayının 14-də Fransada növbəti prezident seçkiləri keçirildi və Emanuel Makron 66,1% səs toplayaraq Fransa Respublikasının 25-ci prezidenti seçildi. E.Makronun prezidentliyi dövründə Fransanın xarici siyasətində islam və türk dünyasına qarşı daha təcavüzkar əlamətlər açıq şəkildə hiss olunmaqdadır. Prezident seçilən kimi Türkiyəni "vacib tərəfdaş" kimi qiymətləndirən E. Makron, sonradan Türkiyənin Avropa İttifaqına üzv olmasının tam əleyhinə çıxmış, islam dünyasına qarşı ittihamlar irəli sürməyə başlamışdır [13.s.47]. E.Makronun bu siyasəti Azərbaycana daha çox təsir göstərmiş və xüsusilə də Ermənistan-Azərbaycan münaqişəsində Fransanın açıq-aşkar təcavüzkar ermənipərəst siyasətini aşkar etmişdir.

Fransa Azərbaycanın müstəqilliyini 1992-ci ilin yanvarın 3-də tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər isə həmin ilin fevralın 21-dən qurulub. 1992-ci ilin martın 16-da Fransa Azərbaycanda, 1994-cü ilin oktyabrın 20-də isə Azərbaycan Fransada səfirliyini açdı [5]. Fransa ilə Azərbaycan arasında yalnız siyasi-diplomatik deyil, həmçinin iqtisadi, enerji, təhsil, mədəniyyət sahələrində

də yüksək səviyyəli münasibətlər formalaşmışdır. Fransanın Cənubi Qafqazla ticarət dövriyyəsinin üçdə ikisi Azərbaycanın payına düşür [3]. Eyni zamanda Fransa digər Cənubi Qafqaz respublikaları olan Gürcüstan və Ermənistanla da siyasi, iqtisadi, təhsil-mədəniyyət sahələrində möhkəm əsasları olan münasibətlər qurmuşdur. Həmçinin Fransa Cənubi Qafqazda demək olar ki, Avropa İttifaqı adından çıxış edir və İttifaqın aparıcı dövlətlərindən biri kimi regional siyasətini Avropa İttifaqı ilə əlaqələndirməyə səy göstərir.

Fransa regionda öz maraqlarını təmin etmək, Türkiyə, Rusiya kimi regional dövlətlərin təsirini azaltmaq üçün, məlum siyasəti həyata keçirməkdən çəkinmir və bunu həyata keçirmək üçün Ermənistanı əsas agent hesab edir. Digər tərəfdən Türkiyə ilə Ermənistan və Azərbaycanla Ermənistan arasında münasibətlərin gərginliyi, İrəvanın Rusiyadan hərbi-siyasi və iqtisadi baxımdan tam asılılığı, Fransanın Ermənistanı bölgədə əsas tərəfdaş kimi görməsi, İrəvanın Fransaya "xilaskar" gözü ilə baxmasına tarixi şərait yaradır. Ermənistanla münasibətləri müttəfiqlik səviyyəsinə çatdırmaqla, Fransa bir tərəfdən Türkiyənin regionda təsirini azaltmağa çalışır, digər tərəfdən də İrəvanı tədricən Rusiyanın nüfuz dairəsindən uzaqlaşdırmaq siyasəti yürüdür.

Fransanın Cənubi Qafqazda cərəyan edən proseslərə təsir imkanını təmin edən məqamlardan biri də Azərbaycan-Ermənistan münaqişəsinin davam etməsi ilə bağlı olmuşdur. 1997-ci ildən ATƏT-in Minsk qrupunun həmsədri kimi vasitəçilik funksiyasını həyata keçirən Fransa bu illər ərzində Ermənistana açıq və gizli dəstəyini göstərməkdən çəkinməmişdir. Xüsusilə, 44 günlük müharibə dövründə, Fransa özünün vasitəçilik missiyasına uyğun olmayaraq təcavüzkar Ermənistanı müdafiə etməsi, Parisin ermənipərəst siyasətinin zirvəsi hesab etmək olar. İkinci Qarabağ müharibəsi bitdikdən dərhal sonra, yəni 2020-ci ilin noyabr ayının 25-də Fransa senatının heç bir hüquqi qüvvəsi olmayan qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanıyan qətnaməni qəbul etməsini, bu ölkədə müəyyən dairələrin ermənilərin məğlubiyyətindən yaranan narahatlığı kimi qəbul etmək olar. Qeyd etmək lazımdır ki, İkinci Qarabağ müharibəsinin gedişində və ondan sonra baş verən proseslərdə Rusiya və Türkiyənin fəallığının artmasını, bu iki ölkənin bir çox məsələlərdə vahid dil tapmasını da, Fransanı narahat edən məqamlardan biri kimi qəbul etmək olar [7, s.124].

Fransa senatının 25 noyabr tarixli qətnaməsi Azərbaycan Respublikası Milli Məclisinin 26 noyabr iclasının gündəliyinə salınmış və müzakirə edilmişdir. Çıxış edən deputatların hamısı Fransa hökumətinin bu təcavüzkar xarici siyasətini kəskin tənqid etmişdilər. [1.]. Fransa senatının Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində mövcud olmayan uydurma rejimin tanınması haqqında qəbul etdiyi bu qətnamə nəinki beynəlxalq hüquqa qarşı təcavüz aktı kimi qiymətləndirməlidir, eyni zamanda siyasi korrupsiyanın nümunəsi hesab edilməlidir. Bu qətnamə təkcə Azərbaycana və Türkiyəyə qarşı əsassız ittiham və böhtandan ibarət deyil, həmçinin, ziddiyyətli və bir çox hallarda tənqid doğuran maddələrlə tamamlanmışdır. [1.]. Bu qətnamə ilə Fransa senatı sanki Azərbaycanı öz ərazisinə hücum etməkdə günahlandırır, işğaldan azad olmuş torpaqlarımızın işğalçıya təkrar geri qaytarılmasını tələb edir, Türkiyəni Fransanı hədələməkdə ittiham edir, onu Orta Şərq, Cənubi Qafqaz və Şərqi Aralıq dənizindəki fəaliyyətindən çəkinməyə çağırır. Fransız senatorlar Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş çoxsaylı beynəlxalq cinayətlərə, dinc azərbaycanlılara qarşı dəfələrlə həyata keçirilmiş tarixi və vandalizm aktlarına göz yumaraq bu qətnamə ilə özlərinin siyasi riyakarlıqlarını bütün dünyaya nümayiş etdirmiş oldular. Qətnamədə əks olunan bütün müddəalar Emənistan və Azərbaycan arasında noyabrın 10-da əldə edilmiş sülh razılaşmasına qarşı olmaqla yanaşı, regionda münaqişənin yenidən alovlandırılmasına və düşmənçiliyin daha da artmasına yönəldilmişdir. Bu qətnamə ilə Fransa senatı BMT nizamnaməsinin tələblərini, BMT Təhlükəsizlik Şurasının qətnamələrini, Helsinki Yekun Aktını, Paris Xartiyasını və bütün nüfuzlu beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qəbul etdiyi qərar və qətnamələri pozmuş, Fransanın beynəlxalq nüfuzunu erməni lobbisinin maraqlarına qurban vermişdir.

Qeyd etdiyimiz kimi, Fransa Qarabağ probleminin nizamlanmasına dair Minsk Qrupunun həmsədri olduğu üçün bitərəf olmalıdır. Lakin Fransa 44 günlük müharibədə sentyabrın 27-dən müharibənin sonuna kimi ikili standarta əsaslanan siyasətini daha qabarıq şəkildə ifadə etməyə başladı, vasitəçiliyə uyğun addımlar atmadı. Prezident Makronun hər hansı sübut olmadan Türkiyə üzərindən Azərbaycana kənardan ermənilərə qarşı mübarizə aparmaq üçün 300 yaraqlının Suriyadan gətirilməsinə dair bəyanat-

ları, həmçinin Fransanın xarici işlər naziri Jan-İv le Drianın II Qarabağ müharibəsi ilə bağlı bəyənatları, Azərbaycan və Türkiyə tərəfindən etirazla qarşılandı. İndiyədək ATƏT-in Minsk Qrupunun həmsədri kimi öz üzərinə götürdüyü öhdəliklərə biganə yanaşan Fransa hökuməti, Dağlıq Qarabağdakı vəziyyətlə bağlı qeyri-adekvat addımlar atırdı [15, s. 14].

Fransanın Qarabağ məsələsində təxribatçı siyasətinin daha bir səbəbi rəsmi Parisin Türkiyənin Cənubi Qafqazdakı hərbi-siyasi iştirakından narahat olmasıdır. Araşdırmalardan belə aydın olur ki, Fransa 44 günlük müharibənin başlanğıcından sonunadək öz ermənipərəst mövqeyi ilə Azərbaycanı müdafiə edən Türkiyə ilə qarşıdurma yaratmaq istəyirdi. Fransa Türkiyənin bu problemdə iştirakını qəbul etmir, Türkiyənin Azərbaycana dəstəyi onu qane etmirdi. Ona görə də Fransa, ABŞ və Rusiya ilə birlikdə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində öz yerini saxlamaq niyyətində idi. Belə məlum oldu ki, münaqişənin sülh yolu ilə həlli Fransanın təcavüzkar planlarına uyğun deyildir. Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxması və Qarabağda Rusiya sülhməramlılarının yerləşdirilməsi Fransanı xüsusi narahat edirdi. Lakin siyasi reallıq onu bəlli etmişdir ki, Azərbaycan, Rusiya və Türkiyə artıq Fransanı çıxılmaz vəziyyətə salmışlar. Nəticədə, Fransa Azərbaycana təsir imkanlarını böyük dərəcədə itirmişdir. Bu da Fransa üçün tam ağır bir geosiyasi itki kimi qiymətləndirilə bilər [17, s.128].

Göründüyü kimi son vaxtlar Fransanın xarici siyasətində təcavüzkarlıq mövqeyi heç də Avropanın bu "adlı-sanlı" ölkəsinə mənfəət gətirmir və əksinə onun nüfuzuna möhkəm xələl yaradır. Fransanın Türkiyə və Cənubi Qafqazla bağlı siyasətində meydana çıxan ziddiyyətli məqamlar, qeyd etdiyimiz kimi bir sıra amillərlə bağlı olmuşdur. Burada əgər əsas səbəblərdən biri Fransadakı güclü erməni diasporudursa, lakin ondan da mühüm problem Fransanın bir aparıcı ölkə kimi beynəlxalq siyasi maraqlarından ibarət idi. Məhz bu maraqların toqquşmasından yaranan ziddiyyətlər Fransanın Türkiyə və Cənubi Qafqazla bağlı siyasət prioritetlərinin müəyyənləşməsinə mühüm təsir göstərir [16, s.5].

2022-ci ilin noyabrında Fransa Senatı avqustda Ermənistanla gərginləşən hərbi münaqişəyə görə hökuməti Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə çağıran qətnaməni dəstəklədi. Sənəd Bakının hərəkətlərini pisləyir, qoşunlarının Ermənistan ərazisindən çıxarılmasını tələb edir, Avropa ölkələri ilə birlikdə bir sıra məhdudiyyətlərin tətbiqinə çağırırdı. Azərbaycan Xarici İşlər Nazirliyi buna cavab olaraq qətnaməni "böhtan", təxribat adlandırmışdı.

2023-cü ilin sentyabrın 19-20-də Azərbaycan ordusunun Qarabağda həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində Qarabağ xuntası öz məhvini rəsmən elan etdi. Antiterror əməliyyatının ilk günündən sonra Fransa prezidenti Emmanuel Makron əməliyyatı dayandırmaq üçün BMT Təhlükəsizlik Şurasının təcili iclasını çağırmaq niyyətində idi. Makron sosial şəbəkədə yazırdı: "Mən baş nazir Paşinyanla sıx əlaqə saxlayıram." 2020-ci il müharibəsindən sonra Parisin ermənipərəst mövqeyi heç dəyişməmişdi. Azərbaycan Xarici İşlər Nazirliyi isə Makrona cavab vermişdi ki: "Fransa regiondan nə qədər uzaq olsa, bir o qədər yaxşıdır" [9] və Azərbaycanın suveren ərazisində yerli antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun olaraq həyata keçirilmişdir.

Fransa Senatı isə Azərbaycanın Dağlıq Qarabağdakı əməliyyatını pisləyən və "Ermənistanın suverenliyini və ərazi bütövlüyünü möhkəmləndirməyə" və Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağıran qətnamə qəbul etmişdi.

Bu gün də Fransa inadla Cənubi Qafqazda regional sabitliyi pozmaqda davam edir. Rəsmi Paris Azərbaycanın dəfələrlə etdiyi çağırışlara məhəl qoymur və Ermənistanda revanşist əhval-ruhiyyəni qızışdırmağa, bu ölkəyə hərbi dəstək verməyə və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının qarşısını almağa çalışır.

2024-cü ilin aprelin 16-da Fransa Xarici İşlər Nazirliyi Azərbaycandakı səfirini məsləhətləşmələr üçün Parisə geri çağırdığını açıqladı. Nazirlik bunu Bakının son bir neçə ayda iki ölkə arasında münasibətlərə xələl gətirən "birtərəfli hərəkətləri" ilə izah edirdi. Hansı hərəkətlərin müzakirə olunduğu dəqiqləşdirilməmişdi, lakin prezident Emmanuel Makronun Fransanın Azərbaycandakı səfiri Ann Bolyonu qəbul etdiyi və rəsmi Bakının niyyətlərinə aydınlıq gətirəcəyinə ümid etdiyini bildirmişdi. Fransa Xarici İşlər Nazirliyinin bəyanatında deyilirdi ki: "Fransa Azərbaycan və Ermənistan arasında beynəlxalq hüquq normalarına və hər iki ölkənin ərazi bütövlüyünə uyğun olaraq münasibətlərin normallaşdırılması prosesini dəstəklədiyini bir daha bəyan edir. Belə normallaşma hər iki dövlətin və bütün regionun maraqlarına cavab verəcək". [10].

Aprelin 17-də Azərbaycan XİN bəyan etdi ki, respublika hakimiyyətinin bütün hərəkətləri “Fransanın dağıdıcı fəaliyyətinə müstəsna olaraq cavab xarakteri daşıyır”. Bəyanatda qeyd edilirdi ki, 2022-ci ilin sentyabrında Azərbaycanın Fransadakı səfirliyinə hücum, 2024-cü ilin yanvar ayında XİX əsrin azərbaycanlı şairəsi Xurşidbanu Natəvanın Evian-les-Beins şəhərindəki abidəsinin naməlum şəxslər tərəfindən boya ilə örtülməsi kimi vandalizm hərəkətləri ikitərəfli münasibətlərə ciddi zərbələr vurur [10] .

2025-ci ilin başlanğıcından Fransa prezidenti Emmanuel Makron Azərbaycana qarşı yürütdüyü əvvəlki siyasətini yenə də davam etdidirir. Eyni şüarlar, tezislər, təmsillər və əsaslandırmalar. Və təbii ki, Makronun fəaliyyətindəki ilklərdən biri də anti-Azərbaycan mövzusudur.

Fransa səfirləri və diplomatları ilə ənənəvi görüşdə Makron növbəti dəfə özünəməxsus bir şəkildə sevimli ermənipərəst hobbi atına minmişdi. Belə ki, o, əvvəlcə Rusiyanın Bakının “fəaliyyətinə” verdiyi dəstəkdən danışmış, ardınca isə “Azərbaycanın Yelisey çöllərinə hücumları” ilə bağlı, “bir çox xarici ərazilərin, xüsusən də Yeni Kaledoniyanın işlərinə qəbuledilməz müdaxilə” ilə bağlı giley-güzarın daha bir hissəsini başlamışdı. Makronun dediyi kimi, Bakı guya “bizim beynəlxalq hüququ müdafiə etməyimizi və Ermənistanı başa düşmür, hesab edir ki, məsələni belə həll edir”.

Azərbaycan Xarici İşlər Nazirliyi hər zaman olduğu kimi, Fransanın son eyhamlarına operativ reaksiya vermiş, özünü beynəlxalq hüququn çempionu adlandırmağı çox sevən Parisin “Azərbaycana münasibətdə norma və prinsiplərinin kobud şəkildə pozulmasını, Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə siyasətini, kütləvi qətliamları və insanlığa qarşı cinayətləri” heç vaxt tənqid etməkdən çəkinmədiyinə diqqət çəkmiş, ölkəmizin suverenliyini şübhə altına alan və Ermənistanı silahlandıraraq, revanşizmə hazırlayan Fransanın mövqeyini pisləmişdir. Makronun yalan bəyanatları kontekstində rəsmi Parisə müraciət ünvanlanıb ki, bu regionlardakı uğursuzluğun günahını Azərbaycanın üzərinə atmasın [8].

Ümumiyyətlə, son illərdə Fransanın xarici siyasətində təcavüzkar mövqeyi, onun antiislam və antitürk siyasəti, əvvəlcə Türkiyəyə qarşı, daha sonra Azərbaycana qarşı yürütdüyü qərəzli xarici siyasət heç də Qərbi Avropanın aparıcı dövlətlərindən biri olan Fransa üçün şan-şöhrət gətirməyəcəkdir. Əksinə, aparılan elmi-siyasi təhlillər və araşdırmalar sübut edir ki, bu cür siyasət Fransanın beynəlxalq nüfuzuna, onun mövqeyinə ciddi zərbə vura bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin IV sessiyası iclasının Protokolu N.35ş. // meclis.gov.az//documents/26.11.2020.pdf*

*2. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri: 1991-2016. Bakı, Poliart MMC, 2017. 904 s.*

*3.Azərbaycan-Fransa münasibətləri yeni inkişaf mərhələsində. // http://www. azerbaijan.news.az/posts/detail-206167*

*4. Fransa Milli Assambleyasının hərəkəti Milli Məclisdə tənqid olundu. // https://qafqazinfo.az/news/detail-343905*

*5. Fransa Respublikasının Azərbaycandakı səfirliyi. // https://oneclick az/ company/embassy-of-france-in-azerbaijan*

*6. Qrevtsova Daria “Borel və Makron Azərbaycanın müstəqil siyasətini qəbul edə bilmir”. // https://bizim.media./az/dunya/28602*

*7. Агазаде М.М. Вторая карабахская война: кто на самом деле победитель? // Постсоветские исследования. 2021. Т. 4. № 2. с. 119–126.*

*8. Атаев Т. Истерика Парижа и реальность Баку. // https://caliber.az/post/isterika-parizha-i-realnost-baku?ysclid=mbl9qu1td2873420229*

*9. Как мир отреагировал на разоружение ВС Армении в Карабахе? // https://vestikavkaza.ru/analytics/kakova-byla-mezdunarodnaa-reakcia-vo-vrema-operacii-azerbajdzana-v-karabahe.html?ysclid=mbl84b50y0902004441*

*10. Как Париж и Баку довели свои отношения до отзыва французского посла. // https://www.rbc.ru/politics/17/04/2024/661fed179a7947d248309cae?ysclid=mbl70pm1ht131107540*

*11. Косенко С. Внешняя политика Франции: новые ориентиры и старые ошибки. / /Внешняя политика зарубежных стран, №1(30), 2014 s.41-44*

*12. Франция запугивает Азербайджан только на словах. // https://www.ng.ru/world/2022-11-16/6_8591_france.html*

*13. Чихачев А. Ю. Внешняя политика современной Франции: особенности дипломатического стиля президента*

*Э.Макрона// Вестник поволжского института управления, Том, 18, №3, 2018 s.46-52*

*14. Чернега. В.Н. Внешняя политика Франции при президенте Макроне: изменения в рамках преемственности? // 2018, // syberlinka.ru/article/n/viewer.ss.64-86 (s.77-78)*

*15. Blandy C.W. 2008. Azerbaijan: Is War Over Nagornyy Karabakh a Realistic Option? / Advanced Research and Assessment Group. Caucasus Series 08/17. Defence Academy of the United Kingdom. May. 23p.*

*16. Evdalini E. New World Order and Small Regions: The Case of South Caucasus. Singapore: Palgrave Macmillan, 2023. 8p.*

*17. Perinchek M. New era in the South Caucasus: The Turkish Russian Joint Monitoring Center // Постсоветские исследования. 2021. Vol. 4. No. 2. p.127-129.*

## XÜLASƏ

1991-ci ildə SSRİ-nin süqutundan və 3 cənubi Qafqaz respublikalarının müstəqil dövlətlərə çevrilməsindən sonra Fransa regionun hər üç ölkəsi ilə münasibətlərini inkişaf etdirmək siyasəti yürüdürdü. Fransanın Avropa və dünya siyasətində yerini, təsir dairəsini nəzərə alaraq Azərbaycan Respublikası da Fransa ilə münasibətlərə, əlaqələrə xüsusi əhəmiyyət vermişdir. Getdikcə Fransanın bu regiondakı siyasətinin mərkəzində Ermənistanın durması: hər şeydən əvvəl erməni diasporunun Fransa siyasətinə və siyasi elitasına təsirinin çox güclü olması; daha sonra Fransanın regionda olan geosiyasi maraqları, onun yürütdüyü təcavüzkarlıq siyasəti, Ermənistanın həyata keçirməyə səy göstərdiyi siyasətlə eynilik təşkil edir.

**Açar sözlər:** *Fransa, Azərbaycan, xarici siyasət, təcavüzkarlıq, geosiyasi vəziyyət.*

## Азербайджано-французские отношения на современном этапе.

## РЕЗЮМЕ

После распада СССР в 1991 году и превращения трех южнокавказских республик в независимые государства Франция проводила политику развития отношений со всеми тремя странами региона. Учитывая место и сферу влияния Франции в европейской и мировой политике, Азербайджанская Республика также придавала особое значение отношениям и связям с Францией. Армения все больше оказывается в центре политики Франции в этом регионе: во-первых, сильное влияние армянской диаспоры на французскую политику и политическую элиту; во-вторых, геополитические интересы Франции в регионе, проводимая ею агрессивная политика идентичны политике, которую пытается реализовать Армения.

**Ключевые слова:** *Франция, Азербайджан, внешняя политика, агрессия, геополитическая ситуация.*

## Azerbaijan-France relations are at a modern stage

## Summary

After the collapse of the USSR in 1991 and the transformation of the three South Caucasus republics into independent states, France pursued a policy of developing relations with all three countries of the region. Considering France's place and sphere of influence in European and world politics, the Republic of Azerbaijan also attached special importance to relations and connections with France. Increasingly, Armenia is at the center of France's policy in this region: first of all, the strong influence of the Armenian diaspora on French politics and political elite; then, France's geopolitical interests in the region, the aggressive policy it pursues, are identical to the policy that Armenia is trying to implement.

**Keywords:** *France, Azerbaijan, foreign policy, aggression, geopolitical situation.*